**“Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın 1.6 və 1.9-cu bəndlərinə əsasən “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində tərəfindən** müvafiq illər üzrə görülən işlər barədə hesabat

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi( bundan sonra Qoruq İdarəsi) öz fəaliyyətində səmərəliliyin və şəffaflığın, habelə , vətəndaş məmnunluğunun təminatını, korrupsiyaya şəraiti yaradaca biləcək halların aradan qaldırılmasını əsas götürmüşdür.

İnsan və vətəndaş hüquqları və azadlıqlarına hörmət, qanunçuluq, humanizm və digər demokratik prinsipləri, yüksək etik davranış normalarını rəhbər tutaraq 2020-2022-ci illər ərzində bu sahədə biliklərin artırılması məqsədilə İdarə və struktur bölmələrində “Etik davranış qaydaları”, “İntizam qaydaları”, “Korrupsiyaya qarşı mübarizə” adlı seminarlar təşkil edilmişdir.

Seminarlarda Qurumun nüfuzunun artırılması, işçiyə ictimai etimadın yüksəldilməsi, onların fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, İdarə və strukturlarında korrupsiya hallarının qarşısının alınması, etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi kimi maarifləndiriçi təlimlər təşkil edilmişdir.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin əməkdaşlarının iştirakı ilə etik davranış qaydalarına dair aktual mövzuların, xüsusən də Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə “Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda və Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiqlənən “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nda etik davranış məsələləri ilə bağlı əksini tapan mühüm məqamlar müzakirə olunmuşdur.

Hesabat dövründə Qoruq İdarəsi və onun strukturlarında işçilərin qulluq etikasının normalarına riayət etmələri vəziyyəti müntəzəm olaraq təhlil edilmiş və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülmüşdür. Görülmüş tədbirlər, tətbiq edilmiş cəza-məsuliyyət növləri haqqında İdarənin rəsmi internet səhifəsində: https://icherisheher.gov.az/ dərc edilmişdir.

2020-2023-cü illər ərzində Etik davranış Qaydaları"nın tələblərini və intizam qaydalarını pozmuş 52 əməkdaşa "xəbərdarlıq", 62 əməkdaşa "töhmət" və digər intizam tənbehi tədbirləri tətbiq edilmişdir.
“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi əməkdaşlar arasında etik davranış Qaydalarına ciddi riayət edilməsi istiqamətində tədbirlərini davam etdirir.

**2020: ümumi 52 (16 xəbərdarlıq, 36 fərqli intizam tənbehi tədbirləri)**

- ətraflı şəkildə əməkdaşlara korrupsiyaya qarşı mübarizə ilə bağlı qanunvericiliyin tələbləri, etik davranış qaydaları izah edilmişdir.

**2021: ümumi 23 (2 –xəbərdarlıq, 21 – fərqli intizam tənbehi tədbirləri)**

**2022: ümumi 21 (15 – xəbərdarlıq, 6 – fərqli intizam tənbehi tədbirləri)**

**2023: ümumi 18 (9 – xəbərdarlıq, 9 – fərqli intizam tənbehi tədbirləri)**